BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2008*

# İRANIN QAFQAZ SİYASƏTİNDƏ DAĞLIQ QARABAĞ PROBLEMİ

S.Ə.TALIBLI
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*

Qarabağ müharibəsi dövründə dünya mətbuatında gedən yazıların bir qismində erməni separatçılarının təcavüzkar əməlləri ört-basdır edilir, bəzən isə onlara haqq qazandırılırdı. Belə ki, Qarabağ erməniləri öz hücumlarına qarşı tərəfin artilleriya hücumlarının qarşısını almaq məcburiyyətində olmaları ilə haqq qazandırırdılar (Qubadlı, Cəbrayıl, Zəngilana hücumlarla bağlı – S.T.). Əslində isə bu hücumların nəticəsində 100 minlərlə Azərbaycan əhalisi məcburi köçkün və qaçqın oldu, onların bir qismi müvəqqəti olaraq İranda sığınacaq tapdılar. O cümlədən Füzuli, Qubadlı, Cəbrayılın əhalisi [8, s. 7].

Bəzən mühasirəyə düşən sivil azərbaycanlı əhali də İrana keçməli olurdu. Bəziləri isə buna cəhd edərkən Arazın sularında boğulmuşdular. Hücum edən erməni qüvvələrindən yaxa qurtarmağa çalışanlar avqustun 25-də Araz çayından İran tərəfə keçmək üçün 2 gün gözləməli oldular. Onlar çayı hər bir vasitə ilə keçməyə can atırdılar. Onlar qarşı tərəfə keçəndə İran rəsmiləri onlara yardım etdi. [9, s.31]

Maraqlı haldır ki, etnik azərbaycanlıların sıx yaşadığı İranın şimal-qərb bölgəsinə azərbaycanlıların daxil olması İranı tez bir zamanda Azərbaycanda 100 min nəfərlik düşərgənin salınmasına yardım etməyə məcbur etdi [9,s.36-37]. Avqustun 18-də BMT Təhlükəsizlik Şurası Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən Füzuliyə edilən hücumları pislədi... Bütün hücumların, düşmənçiliyin kəsilməsini və atəşkəsin təmin olunmasını tələb etdi [10, s.14]. İran da həmçinin Ermənistana və Dağlıq Qarabağa hücumların dayandırılması üçün təzyiq etdi. İlk hədələr İranın ingilis dilli «Tehran Times Kayhan İnternational» səhifəsində üzə çıxdı: «Əgər bizim sərhədlərimizin təhlükəsizliyi qorxu altında qalarsa, liderlərimiz bu məsələyə biganə qalmayacaqlar». Bu bəyanat İran Xarici İşlər Nazirliyinin rəsmi xəbərdarlığı, İranın Ermənistan və Azərbaycan sərhədlərinə hərbi qüvvələrin yerləşdirilməsi ilə müşayiət olundu. Türkiyə də həmçinin Ermənistanla sərhədində hərbi qüvvələrini gücləndirdi və baş nazir T.Çillər xəbərdarlıq etdi ki, Türkiyə bu məsələlərə laqeyd qalmayacaq. ABŞ Dövlət Departamenti dövlət katibi Kristoferin Qarabağ ermənilərinə münaqişəyə daha konstruktiv yanaşmağa çağıran məktubunu dərc etdi [9, s.37].

İran rəsmiləri erməni hərbiçilərinin əlindən xilas olmaq üçün Arazı keçərək İrana pənah gətirən insanları ərzaq və isti paltarla təmin edirdilər. Tehranın «Həmşəhri» qəzetinin məlumatına görə, erməni hücumlarının başladığı ilk iki gündə İrana 10 min Azərbaycan qaçqını keçmişdir [11, s.9].

Oktyabrın 25-də qondarma Dağlıq Qarabağ Müdafiə Komitəsinin başçısı bəyanat verdi ki, onlar İran-Azərbaycan sərhədinin 40 kilometrinə nəzarət edirlər. Təqribən 60 min azərbaycanlı əhali və müəyyən sayda Azərbaycan əsgəri Zəngilanda mühasirəyə düşmüşdülər. Erməni qüvvələri 3 tərəfdən hücuma keçdikləri üçün həmin ərazidəki Azərbaycan əhalisinin yeganə xilas yolu Arazı keçərək İranda yerləşmək qalırdı [9, s.44].

1980-cı illərin sonunda artıq Dağlıq Qarabağ Ermənistan və Azərbaycan arasında əsas mübahisəli ərazi məsələsi vəziyyətinə gəldi. Moskvanın müdaxiləsi vəziyyəti daha da ağırlaşdırmaq üçün hazırlanmış, ya da bilmədən bu təsiri yaratdısa da, faydasız oldu. Ter Petrosyanın lider kimi önə çıxardığı Ermənistan Qarabağ Komitəsi bölgədə güc tətbiqinin qaçılmaz olduğu istiqamətində şərait yaradılmasına səbəb oldu. Müstəqil Ermənistan və Azərbaycana hər iki hökumətin nəzarət edə bilməməsi artan fanatik və ortaq məxrəcə gəlməyən partizanlar tərəfindən davam etdirilən müharibə onlara miras qaldı [1, s.29].

«New TІmes InternatІonal» dərgisinin müxbirlərindən biri Aleksandr İsgəndəryan bu vəziyyətdə ermənilərin müharibəni təblig etmək və hərbi hədələməyə üstünlük verməkdən başqa çarələri qalmadığı nəticəsinə gəlmişdir. İsgəndəryana görə, müharibə edən tərəflərin vəziyyətlərinə nəzər salındığı halda torpaq, əhalinin sayı, iqtisadi potensial, strateji mənbələr, müttəfiqlər və xarici yardım kimi obyektiv amillərin Azərbaycanın lehinə olduğu ortaya çıxacaqdır. Ermənilərin yalnız gələcəyə olan inamı, sona qədər müharibəyə hazır olma və nizam-intizam kimi subyektiv faktorlar da vacibdir. İsgəndəryan bunun üçün bir çıxış yolunu müharibəni genişlətmə və yaxından izləndiyi zaman, bu mövzuda planların nə qədər müvəffəqiyyətlə səhnəyə qoyulduğu görüləcəkdir.

«Qolos Armenii» qəzetinə görə, sülhə gedən tək yol hərbi qələbədir. Rusiyanın keçmiş prezidenti Yeltsinin siyasi müşaviri və Prezident Aparatı Şurasının üzvü olmuş Andranik Miqranyanın təklifi bu yöndən çox maraqlıdır. Miqranyan «Nezavisimaya» qəzetinin 1994-cü ilin yanvar saylarının birindəki məqaləsində Azərbaycan və Gürcüstanın federal dövlətə çevrilməsini təklif etmişdir. Miqranyan federal dövlətə çevrilmiş Azərbaycan və Gürcüstanın Moskvasız yaşamayacağını iddia etmişdir. O, Ermənistanın Rusiyanın cənub sərhədində bir sabitlik və tənzimləyici ünsürə çevrilməyin lazım olduğunu da bəyan etmişdir. Levon Şirinyan daha əvvəl «Ararat» qəzetindəki şərhində eyni təklifi irəli sürmüşdür. Şirinyan başqa bir yazısında isə Naxçıvanın Ermənistana geri verilməsinin lazım olduğundan bəhs etmişdir [2, s.63].

Təbiriz Universitetinin pedaqogika və psixologiya fakültəsi İslam Birliyinin jurnalında «ermənilərin azərbaycanlılara qarşı cinayətlərinə etiraz etmək məqsədilə Təbriz Azad İslam Universitetində nümayiş keçirmişlər» məqaləsində yazılır: «Tələbələr Azad İslam Universitetinin Əllama Cəfəri binası qarşısında toplaşaraq Ermənistan bayrağını yandırdılar. Tələbələr həmçinin ermənilərin son 150 il ərzində Azərbaycanın müxtəlif bölgələrində törətdiyi bütün cinayətləri məhkum etmək üçün şüarlar səsləndirdilər. Şüarlar belə idi: «Ermənistana ölüm!», «Qarabağda qan axır, Güney uzaqdan baxır», «Cəllad Köçəryan sənə ölüm olsun!». Nümayişçilər həmçinin İİR-dən ermənilərin cinayətlərinə etiraz etmələrini tələb etdilər» [12].

İran mətbuatı və kütləvi informasiya vasitələri Dağlıq Qarabağda

cərəyan edən hadisələr barəsində müxtəlif məzmunda yazılar dərc edirdi. Bu yazılarda faktiki materiallarla yanaşı, subyektiv fikirlər də özünə yer almışdır.

«Qarabağda müsəlmanların dini düşüncəsi və milli inamı məhv olmaq üzrədir» adlı məqalədə qeyd olunur ki, «Azərbaycan şəhərlərinin işğalı zamanı Şuşa (9 fevral 1992), Laçın (17 fevral 1993), Xankəndi (21 fevral 1992), Qubadlı (31 avqust 1993), Zəngilan (6 aprel 1993), Cəbrayıl (18 avqust 1992) və Ağdamda (23 iyul 1993) indiyə qədər 25 min azərbaycanlı şəhid olub, 1 milyon yarımdan çox qaçqın və köçkün vəziyyətinə düşüb. Azərbaycan ərazisinin 20%-indən çoxu ermənilər tərəfindən işğal olunub. Beləliklə də, bu gün Fələstində olduğu kimi, Qarabağda da bizim ən əsas və ən mühüm insani keyfiyyətlərimizdən olan dini və milli təfəkkürümüz məhv olmağa doğru gedir. Gəlin bunların hər ikisinin qurtuluşu üçün birgə səy göstərək [12].

Ermənistanın Azərbaycan ərazisini işğal etməsi və ölkədə yaranmış böhranlı vəziyyətin uzanması İrəvanı çətin vəziyyətdə qoymuşdu. Ölkədə yaranmış vəziyyətdən çıxış yolları üstündə mübahisə gedirdi. Bəzən bu çevriliş cəhdlərinə gətirib çıxarırdı. Ermənistan parlamentində baş verənlər buna nümunədir. Bu arada Ermənistanın Tehranda olan səfiri Qərib Caniyan gündəlik «Sobhe Emruz» qəzetinə verdiyi müsahibəyə aydınlıq gətirdi ki, Ermənistanda baş verən sui-qəsd Qarabağ məsələsi ilə bağlı deyil. Bu sadəcə müəyyən terrorçuların Ermənistan parlamentinə hücum etməsi və hec bir siyasi məqsəd güdməyərək bir neçə adamın öldürülməsidir [7, s.494].

İran müəllifi yazırdı ki, Azərbaycan rəsmiləri öz ölkələrinin siyasi, hərbi və iqtisadi təhlükəsizliyini regiondan kənar müttəfiqlərinin – ABŞ, (NATO), İsrail (İranın və Ermənistanın qatı düşməni olan) və Türkiyənin hesabına təmin etməyə çalışırdı. Onlar regionu hərbiləşdirir və Rusiya, İran və Ermənistana birbaşa meydan oxuyurlar [7, s.509].

İran tərəfi özünün Dağlıq Qarabağ problemində vasitəçilik səylərini İrəvana da təklif edirdi.

İİR prezidentinin birinci müavini doktor Məhəmmədrza Arif Ermənistan XİN-dəki görüşündə Qarabağ probleminin dinc yolla həlli üçün İİR-in kömək etməyə hazır olduğunu bildirmişdir. Məhəmmədrza Arif Ermənistan xarici işlər naziri Vardan Oskanyanla görüşündə Ermənistanla İran arasındakı müştərək tarixi cəhətləri vurğulayaraq bildirmişdir ki, İİR xarici siyasətinin əsas istiqaməti Tehranla İrəvan arasında münasibətlərin yaxşılaşmasıdır. O, həmçinin bildirmişdir ki, İranla Ermənistan arasında bir sıra beynəlxalq məsələlərdə mövqeləri üst-üstə düşür. Ermənistanın xarici işlər naziri Vardan Oskanyan isə həmin görüşdə İİR-nin bödgədəki roluna toxunaraq iki ölkə arasındakı qarşılıqlı münasibətlərin daha da gücləndirilməsinin zəruri olduğunu bildirmişdir. O, İİR-nin Qarabğla bağlı mövqeyini bəyəndiyini və onun bölgənin xeyrinə olduğunu bildirmişdir.

İİR Ali Təhlükəsilik Şurasının katibi Həsən Ruhani iki ölkə arasında elektrik sahəsində əməkdaşlığın daha da zərurliyini qeyd edib. O, eyni zamanda ümidvar olduğunu bildirib ki, gələcəkdə İran qazının Ermənistana çatdırılması üçün qaz kəmərinin çəkilməsinin həyata keçirilməsi başa çatdırılmalıdır. Ruhani həmçinin Qafqaz bölgəsindəki dəyişiklik barədə, habelə Qarabağ haqqında da erməni naziri ilə müzakirələr aparıb. Bölgədəki problemlərin dinc yolla həlli istiqamətində qonşu döv-

lətlərin rolu nə qədər çox olsa, o qədər də region ölkələri sülh və sabitlik içində yaşayarlar. O, bildirib ki, İran, Əfqanıstan, Fələstin, Qafqazdakı hadisələr regionu bürüyən 4 problemdir. Bu 4 problem həllini tapmayınca region ölkələri inkişaf edə və çiçəklənə bilməyəcəklər. Həmin görüşdə V.Oskanyan iranlı həmkarlarından Ermənistana qaz kəmərinin çəkilməsi prosesinin sürətləndirilməsini istəyib [15].

Azərbaycanlı tələbələrin Tehranda nəşr olunan «Yol» dərgisində yazılırdı ki, «12 il bundan əvvəl qorxunc bir günün səhər çağında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərində və ətraf kəndlərində minlərlə günahsız insan qaniçən erməni daşnakları tərəfindən qəddarcasına qətliam edildilər. Bu qanlı faciədə südəmər körpələrə, uşaqlara, yaşlı qadın və kişilərə və hətta xəstələrə belə rəhm göstərilmədi. Qaniçən bədnamlar Xocalını mühasirəyə alaraq və şəhərin bütün yollarını bağlayaraq Əsgəran döngəsində yolu 10 min nəfərdən artıq şəhər əhalisinin üzərinə bağlayıb, ağır top və ağır silahların atəşi ilə iztirab içində özü üçün pənah axtaranlara atəş açdılar. Sonra isə bu qaniçən vəhşi hücumu başlandı. Onlar əllərinə düşən hər kəsi parçalayıb, öldürüb, yaxud da yandırdılar. Minlərlə insan xəncər və nizə ilə bağlanıb amansız şəkildə şəhid edildilər. Günahsız didərginlərin bəzisini isə diri-diri odda yandırdılar. Didərgin düşmüş əhalinin mal-dövləti qarət edildi və həyasızcasına Azərbaycan müsəlmanlarının namusuna təcavüz edildi. 26 fevralda erməni daşnakların insanda nifrət oyadan böyük cinayəti nəticəsində Xocalının məzlum və müsəlman əhalisinin 1/3 ən acınacaqlı şəkildə şəhid edildilər» [14].

İran İslam Respublikası və Azərbaycan arasında əməkdaşlıqda ilk siyasi addım – İranın Azərbaycanın İslam Konfransı Təşkilatına daxil olmasına kömək etmək idi. Hal-hazırda Azərbaycan özünə aid bütün məsələlərlə bağlı islam dünyasının arenasına çıxır və müsəlman ölkələrinin müdafiəsindən geniş istifadə edir. Bundan əlavə, 1992-ci ildə İran İslam Respublikasının Milli Məclisinin qəbul etdiyi qərara əsasən, İran İslam Respublikasının bütün ölkələrdə yerləşən səfirlikləri problemlərindən və məsələlərindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarından öz köməklərini əsirgəməməlidirlər. Amma bu məsələ bəzi hallarda özünü doğrultmur.

İran İslam Respublikası Azərbaycan müstəqillik əldə etdikdən sonra yaranmış Dağlıq Qarabağ münaqişəsini tanıyır və çalışır ki, mümkün qədər bu münaqişənin aradan qaldırılmasında ona köməklik göstərsin. Məhz İranın vasitəçiliyindən sonra Qarabağ münaqişəsinin ilk atəşkəs haqqında sazişi imzalanmışdı. Tehran müqaviləsinin bağlanması Qarabağ münaqişəsinin həllində ədalətli prinsip əsasında qurulmuşdu (bu müqavilənin bir neçə bəndi bu günə kimi də ədalətli hesab olunur).

Lakin regionda böyük dövlətlərin maraqlarının toqquşması və Azərbaycanın daxilində gedən qarşıdurmalar və hökumət başçılarının səhv siyasəti nəticəsində Qarabağ münaqişəsi öz həlli yollarını tapmadı. İranın beynəlxalq və regional təşkilatlarda aydın və konkret mövqeyi Azərbaycanın işğal olunmuş torpaqlarının qaytarılması üçün əhəmiyyətli olardı və müsbət rol oynaya bilərdi. Aydındır ki, İranın bugünkü mövqeyi də Qarabağ münaqişəsinin həllinə aktiv təsir göstərmək imkanına malikdir [4, s.19-20].

Moskva – Tehran, daha dəqiq desək, Moskva – Tehran – İrəvan geosiyasi oxunun yaranması Dağlıq Qarabağ probleminin çözülməsi və

onun ədalətli həllini xeyli çətinləşdirmişdir.

Ancaq qeyd etmək lazımdır ki, bu iki dövlətin siyasi və iqtisadi coğrafiyası müxtəlif faktorlardan asılıdır. Birincisi, Rusiya zahirdən Dağlıq Qarabağ münaqişəsinə qarışmaq istəmir, ikincisi, İran-Ermənistan arasında elə siyasi maraqlar yaşanır ki, onlara vasitəçilərin müdaxiləsi artıqdır, üçüncüsü, İran və Rusiya Ermənistanın hərbi-siyasi ittifaqa daxil olmasını və «böyük iqtisadi region»a qoşulmasını dəstəkləyirlər. Təbii ki, bütün bunlar başda İranın olması şərti ilə gerçəkləşə bilərdi [6, s.31].

Lakin Ermənistanın İrandakı səfiri Qərib Caniyan «Sobhe Emruz» qəzetinə verdiyi müsahibəsində qeyd etmişdi ki, Ermənistanda baş verən hadisələr heç də Qarabağ münaqişəsi ilə əlaqəli deyil. Bir neçə terrorçu heç bir siyasi motiv olmadan erməni parlamentinə hücum edib bir neçə insanı qətlə yetiriblər [3, s.31].

İran İslam Respublikasının informasiya agentliyi xəbər verdi ki, 16 oktyabr 1998-ci il tarixində Avstriyada Avropanın Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının məlumatlarına əsasən Qarabağ erməniləri qətiyyətlə Qarabağın Azərbaycana qaytarılmasına etiraz edirlər. Ancaq onlar bu respublika ilə münasibətlərini saxlamaq niyyətindədirlər.

Avropanın Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının tərkibinə daxil olan ABŞ, Rusiya və Fransa diplomatlarından ibarət olan bir qrup Azərbaycan rəhbərləri ilə bu məsələlərlə bağlı danışıqlar aparmışlar. Lakin bu danışıqlar müsbət nəticə verməmiş, sülh yolu ilə münaqişənin aradan qaldırılmasına təsir etməmişdir [3, s. 45].

Hələ atəşkəs haqqında müqavilə imzalanmadan öncə (may 1994) İran diplomatları Azərbaycan və Ermənistan arasında vasitəçi missiyası həyata keçirərək müəyyən bir müddətə hərbi əməliyyatların gedişini dayandırmağa çalışırdılar.

Tehran öz hərbi hissələrini Azərbaycanla sərhədlərinə yaxınlaşdırmışdı. Faktlar göstərir ki, İranın Ermənistana, Azərbaycana qarşı hərbi əməliyyatlarını dayandırması haqda xəbərdarlığı olmuşdur (Dağlıq Qarabağ, Zəngilan, Füzuli, Cəbrayıl rayonlarının işğalından sonra).

Bu münaqişənin həlli yollarına İran ancaq 7 aprel 2001-ci ildə Floridada keçirilən danışıqlar əsnasında müvəffəq olmuşdur. Bu danışıqların vasitəçiləri tərkibinə 3 ölkə – ABŞ, Fransa, Rusiya ölkələri daxil olan Minsk qrupu rəhbərləri idilər. 1992-ci ildə ATƏT-in Minsk Qrupunun yaradıcıları bu məsələnin həlli yollarını tapacaqlarına əmin idilər.

Dağlıq Qarabağ probleminin həlli yollarını tapmaq üçün İrana səfər edən Minsk qrupunun Fransalı həmsədri problemlə bağlı məsələləri müzakirə etmək və fikir mübadiləsi aparmaq üçün İran rəhbərliyi ilə görüşdü. Onun fikrincə, Qafqaz regionunda stabilliyin və təhlükəsizliyin qorunmasında İranın başlıca rolu ola bilər.

Qarabağ münaqişəsi məsələləri ilə məşğul olan ATƏT-in Minsk qrupunun Amerika tərəfindən olan həmsədri Keri Havana İran hökuməti ilə görüşlərdə iranlıları əmin etməyə çalışırdı ki, Qarabağ münaqişəsi İran ölkəsinə öz təsirini göstərə bilməz [5, s. 111].

## QEYDLƏR

1. Paul B.Hanze. Gürcüstan ve Ermenistan: Sıkıntılı Bığımsızlık // «Avrasya Etüdleri» dergisi. Ankara: «TİKA» №2, yaz 1995, s. 25-35.
2. Yasin Aslan. Elçibey, Aliyev ve Azerbaycan Fenomeni // «Avrasya Etüdleri»

dergisi. Ankara: TİKA, №1, İlkbahar 1994, s. 57-65.
3. Ахмадиан Б.А. Изменения в Карабахском конфликте. // Аму-Дарья. Иранский журнал по изучению Центральной Азии и Кавказа. Тегеран: Зима 2000, №4, стр. 28-55.
4. Бигдели А.-Р. Обзор отношений между Исламской Республикой Иран и Республикой Азербайджан // Аму-Дарья. Иранский журнал по изучению Центральной Азии и Кавказа. Тегеран: лето 1999, №2, стр. 17-25.
5. Мелики А. Иран и Туран: к вопросу об отношениях Ирана с государствами Центральной Азии и Закавказья // Центральная Азия и Кавказ. Общественно-политический журнал. Швеция: 2001, №5 (17), стр. 110-115.
6. Морадьян И. Вопросы, касающиеся формирования экономической географии «большого экономического региона» и отношения Ирана с Арменией // Аму-Дарья. Иранский журнал по изучению Центральной Азии и Кавказа. Тегеран: лето 1999, №2, стр. 29-36.
7. Amir-Ahmadian B. The Karabakh Crisis: Developments // Amu Darya. Iranian Journal of Central Asian Studies. Tehran: Winter 2000, vol. 4, No. 4, p. 491-516
8.Caucasus City Falls to Armenian Forces. "The New York Times", August 24, 1993, p. a 7.
9. Seven years of conflict in Nagorno-Karabakh. Human Rights Watch on Azerbaycan/ Helsinki. New York: 1999, 154 p.
10. Unated Natİons Demands Armenİans Give up Gonquests.*"The New York Tİmes"*, August 19, 1993, p. 14.
11. "Armeniar kesseln Aserbaidschaner ein". Sueddeutsche Zeitung. Munich: October 27, 1993, p. 9.
12. ویژه نامه خبری پیرامون حوادث اخیر تهران. انجمن اسلامی دانشکده علوم تربیتی و روانشناسی . چهارشنبه 83/2/16
13 ویژه نامه خبری پیرامون حوادث اخیر تهران.انجمن اسلامی دانشکده علوم تربیتی و روانشناسی . چهارشنبه 83/2/16
14. یول درگیسی، یول، هفته نامه خبری دانشجویان ترک دانشگاههای تهران، شماره 45، یکشنبه
15. یول درگیسی، یول، هفته نامه خبری دانشجویان ترک دانشگاههای تهران، شماره 42، یکشنبه 1383، 14/30/01 آوریل 2004، "ائرمنیستان خاریجی ایشلر ناظیرینین ایران رسمیلری ایله گؤروشو"

## НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА В ПОЛИТИКЕ ИРАНА НА КАВКАЗЕ

С.А.ТАЛЫБЛЫ

### РЕЗЮМЕ

Поскольку Иран всегда вёл осторожную политику в отношении своего соседа – Советского Союза, то и к его распаду он отнёсся с осторожностью. Неслучайно Иран длительное время воздерживался от признания, провозгласивших свою независимость, республик.

После того, как к декабре 1991 года республики Южного Кавказа приобрели независимость, Тегеран активизировал борьбу за свои стратегические интересы в этом регионе. Руководство Ирана внимательно следило за военно-политическими процессами, происходящими на Южном Кавказе. Тегеран неоднократно пытался выступить посредником в разрешении конфликта в Нагорном Карабахе, но его попытки не завершились успехом. В работе делается ссылка на, изданные в Иране, статьи о происходящих в Нагорном Карабахе событиях. В этих статьях наряду с фактическими материалами отражается и позиция иранского руководства.

**UPPER GARABAKH PROBLEM IN THE IRANIAN CAUCASUS POLICY**

**S.A.TALIBLI**

**SUMMARY**

Because of the reason that Iran always has become too careful in regards to USSR, it took very sensible attitude for its collapse. Its position remained so even when the issue became the real or recognition the independence of post soviet states.

After the Caucasus states declared their independence in 1991, Iranian party activated its policy for taking strategic position in this region. Iranian leadership took under serious attention of the military-political processes that was going in Southern Caucasus. Many times Iranian political leadership tried to meditate between the conflicting parties, to help for the peaceful of Upper Garabakh conflict.

The for the careful analyzed iranian position towards Upper Garabakh problem in the context of Iranian Caucasus policy, we have used many publication that are published in Iranian journal, as well in foreign countries.